# DİRÇƏLİŞ XXI əsr

2005 Noyabr November 93

Rebirth XXI century

Azərbaycan Dövlət Quruculuğu
və Beynəlxalq Münasibətlər İnstitutu

Azerbaijan Institute of State Building
and International Relations

*Tarixi həqiqətlər*
BAKI NEFTİNƏ DAİR
ALMANİYA-RUSİYA DANIŞIQLARI ........ 114
***Şirxan SƏLİMOV***

*Demokratik dəyərlər*
İNSAN HAQLARI
MÜXTƏLİF BAXIŞ BUCAQLARINDAN ........ 122
***Babək MƏMMƏDOV***

*Qloballaşma*
POSTQƏRB SİVİLİZASİYASINDA
DÜNYƏVİ VƏ DİNİ DƏYƏRLƏRİN
QARŞILIQLI ƏLAQƏSİ ........ 130
***Elmir QULİYEV***

AZƏRBAYCAN RESPUBLİKASINDA
İNTEQRASİYA PROSESLƏRİ ........ 137
***Seymur ƏHMƏDOV***

*Təşəbbüs*
BAKIDA TERRORİZM QURBANLARINA
ABİDƏ UCALDILACAQ ........ 146

*Sosium*
STRES PSİXOLOGİYASI BARƏSİNDƏ
BƏZİ MÜHAKİMƏLƏR ........ 147
***İlham MİRZƏYEV***

*Bəşəriyyət və təkamül*
TARİXİN ÜMUMİ DÖVRLƏŞDİRİLMƏ
PRİNSİPLƏRİ MƏSƏLƏSİNƏ DAİR ........ 156
***Həsən HƏSƏNOV***

İNTELLEKTUAL İNKİŞAFIN
YAŞ DÖVRLƏŞDİRİLMƏSİNƏ DAİR ........ 164
***Rövşən HACIYEV***

*Redaksiyadan*
80 YAŞIN ASTANASINDA ........ 170

*Mənbəşünaslıq*
AZƏRBAYCAN ARXİVŞÜNASLIĞI ........ 171
***Mətanət MƏMMƏDOVA***

Elmir QULİYEV,
*AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı*

# POSTQƏRB SİVİLİZASİYASINDA DÜNYƏVİ VƏ DİNİ DƏYƏRLƏRİN QARŞILIQLI ƏLAQƏSİ

Qloballaşma dünya birliyinin subyektləri qarşısında iqtisadi inkişaf üçün çoxlu imkanlar açır və dünyanın qabaqcıl ölkələri təcridolunma siyasətindən həvəslə imtina edərək, qloballaşma prosesinə qoşulurlar. İnsanların sosial, mənəvi və dini dəyərlərə əsaslanan iqtisadi həyatına müdaxilə edən qloballaşma dünyəvi dəyərlərə söykənir və qeyri-rasional görüşlər üçün heç bir yer qoymur. Buna baxmayaraq, dünyəvi dəyərlər sistemi sıxışdırılıb aradan çıxarılan dini dəyərləri tam kompensasiya etmək iqtidarında deyil. Belə ki, dini dəyərlərin sıxışdırılması nəticəsində Qərbdə artıq dini-mənəvi dəyərlərin böhranı hökm sürür. Liberalizm və demokratiya insanın daxili azadlığını ifadə etməkdən daha çox, onun cəmiyyətdəki davranışını əks etdirir. Liberalizm və demokratiya fərdin mənəvi sərbəstliyi ideyasını ifadə etməklə yanaşı, günah məfhumunun özünü belə istisna edir.

*Dövlətdə həyata keçirilən siyasi və sosial-iqtisadi islahatlar cəmiyyət həyatının inkişafı ilə paralel aparılmalıdır. Həm dövlət, həm də vətəndaş cəmiyyəti həmin bu proseslərin nizamlanmasına görə məsuliyyət daşıyır, çünki hər hansı bir islahat birtərəfli qaydada həyata keçirilə bilməz.*

B.Mitçel haqlı olaraq qeyd etmişdir ki, insanların əksəriyyəti cəmiyyətdə hökm sürən dünyəvi əxlaq modeli ilə razı deyildir. "İnsanlar onları mühakimə edə biləcək, fərd və cəmiyyətin mövcud maraqlarına üstün gələ biləcək standartlar axtarışındadır: onlar yalnız mənfəət xarakteri daşıyan və utilitar əsaslarla bəraət qazanmayan, yalnız insanların ciddi surətdə və uzun

müddət sadiq qala biləcəyi ideal və prinsiplər axtarırlar. Başqa sözlə desək, insanlar onlara daha açıq olan əxlaqi nəzəriyyələrlə uyğun gəlməyən əlçatmaz əxlaqi konsepsiya axtarırlar".[1]

Piter Dijersin sözlərinə görə, mövcud liberal-demokratik mədəniyyətin tənqid olunması onun sağlam ruh konsepsiyasına zidd olması ilə bağlıdır. Belə ki, onların fikrincə, liberal demokratiya insanın öz şərəf və ləyaqətini dərk etməsini çətinləşdirir, bununla da mənəvi dəyərlərdən imtina sisteminin öz əsaslarını belə təhlükə altına alır. [2]

Keçən əsrin sonunda Qərb cəmiyyətində müşahidə olunan daxili ziddiyyətlərin artması demokratik dəyərlərin fərdi maraqlara qurban verilməsilə nəticələndi. Totalitar prinsiplərdən imtina, insan haqları və əsas azadlıqlarının pozulması faktlarının çoxalması Qərb demokratiyasının dərin böhran keçirməsindən xəbər verirdi.

E.Adamsın fikrinə görə, İntibah dövründən başlayaraq Qərb sivilizasiyası tədricən mənəvi dəyərlər sistemindən məhrum olmağa başlayır. Mənəvi dəyərlərə əsaslanmayan konseptual nəzəriyyə ilk dəfə olaraq **fizika** elmlərində meydana çıxdı. Bir müddət keçdikdən sonra Darvinin təkamül nəzəriyyəsinin kəşfilə əlaqədar olaraq, bu konsepsiya **biologiya** elmlərində də tətbiq olunmağa başlandı. Biheviorist psixologiya mənəvi dəyərlər sistemindən azad olan elmi metodları insan davranışına, sosial elmlər isə sosioloji dəyişikliklərə tətbiq etməyə başladı. "Bizim mədəniyyətdə, əsasən, empirik elmi yanaşma reallığı dərk etməyin yeganə vasitəsi kimi qiymətləndirilir. Bir sıra dərsliklərdə elmi cəhətdən sübut olunmamış hər bir etiqad mövhumat adlandırılır. Ümumiyyətlə, bizim təhsil sistemi təcrübə, təfəkkür və reallıq barəsində mövcud naturalist görüşlərin möhkəmləndirilməsinə çalışır".[3]

Tədqiqatçının qeyd etdiyi kimi, müasir Qərb cəmiyyətində əvvəlki kimi azadlıq və fərdiyyətçilik (individualizm) ideyaları üstünlük təşkil edir, lakin azadlıq konsepsiyası da əxlaq nəzəriyyəsi kimi radikal dəyişikliklərə məruz qalmışdır. "Subyektiv anlamdakı azadlıq və fərdiyyətçilik ideyaları təbiətdə mövcud olan normativ struktura malik əşyaların insanın öz şəxsi idrak gücü ilə dərk olunan azadlıq və fərdiyyətçilik anlayışlarından kəskin surətdə fərqlənir. Sonuncu halda fərdi azadlıq rasional ictimai qayda-qanunla uyğunluq təşkil edir. Birinci halda isə rasional ictimai qayda-qanun qeyri-mümkündür və fərdi azadlıqla qanunla nəzərdə tutulmuş hərəkətlər bir-biri ilə ziddiyyət təşkil edir".[4]

Beləliklə, dünyəvi etika fərdi məsuliyyət üçün imkanlar açaraq, ənənəvi əxlaqi köklərdən məhrum olan

insan azadlığı kultunun yaranmasına səbəb olmuşdu. Sosial həyatda mənəvi dəyərlərin yoxluğunu azad sahibkarlıq və demokratik dövlət quruluşu ideologiyası ilə doldurmaq cəhdləri hər hansı bir uzunmüddətli nəticələrə gətirib çıxarmadı. Bu, Qərbin bir çox mütəfəkkirlərini modernist və ənənəvi dəyərlərin sintezi problemini araşdırmağa vadar etdi. R.Vatnau yazır: "İctimai rəy siyasət, istehlakçıların maraqlarının müdafiəsi və şəxsi əxlaq meyarlarının dar və mübahisəli görüşləri özündə ehtiva edən xarakter almasından etibarən, biz mədəni irsimizin ən mühüm tərkib hissəsilə olan əlaqələrimizi itirdik". O daha sonra fikrinə davam edir: "Bizim, həqiqətən də, iqtisadi həyatda əxlaqi məhdudiyyətləri sübut etmək iqtidarında olan çox güclü, lakin unudulmuş ənənələrimiz var. Bu irs dini etiqadlarda kök salmaqla yanaşı, ədəbiyyat və incəsənət ənənələrimizin də ayrılmaz tərkib hissəsidir. Bu irs, bir sıra müasir tədqiqatçıların fikrincə, yenidən öyrənilməlidir".[5]

Dini dəyərlər insan fəaliyyətini müəyyən anlamda məhdudlaşdırmaqla yanaşı, öz cazibədarlığını itirmir, çünki insan şüuraltı olaraq onların daim aktual əhəmiyyət kəsb etdiyini hiss edir. Buna görə də, dini dəyərlər ictimai həyatın ən real faktoruna çevrilir. Mütləqliyə iddialı və konkret tarixi məzmuna malik olan dini dəyərlər cəmiyyətin həyatına texnogen mədəniyyətdə çatışmayan məzmun verir.

**Məhz mənəviyyat qıtlığı və əxlaq məsələlərində məhdudiyyət qoyulmaması texnologiya və informasiya inqilabının bütün nailiyyətlərindən istifadə edən cəmiyyət üçün daha çox təhlükə törədir.** Virtualist təzahürlərin geniş yayılması çox hallarda ruh düşkünlüyü və psixoloji nasazlığa səbəb olur, ictimai əlaqələrin zəifləməsinə və təcridolunmaya gətirib çıxarır. A.V.Nazarçukun qeyd etdiyi kimi, məlumatların informasiya texnologiyaları vasitəsilə əldə olunması bioloji cəhətdən müəyyən olunmuş informasiya qəbulu üsulunun və qarşılıqlı əlaqələrin pozulmasına səbəb olur. Bu, nəticə etibarilə, insanın ruhi aləmində insan bədəni və psixikasının alışdığı real dünyanı əvəz edən maddi əsası olmayan dünyanın formalaşmasına gətirib çıxarır. Nəticədə, ruh düşkünlüyü, şəxsiyyətin aşınması və s. kimi hallar baş qaldırır.[6]

Gen mühəndisliyinin inkişafı insanın reproduktiv klonlaşdırılmasını daha çox mümkün edir, bunun hansı sosial nəticələrə gətirib çıxaracağını qabaqcadan bilmək isə çox çətindir. Texnologiyalar artıq sadəcə insana xidmət etmir, habelə ona yeni həyat qaydaları diktə edir. Biotexnologiyaların sürətli inkişafı elmi cəhətdən əsaslı olmaqdan daha çox, transmilli korporasiyaların maliyyə maraqlarına xidmət edir.

Genetik cəhətdən yeniləşdirilmiş mədəni bitkilərin dünya bazarındakı qiyməti 1996-cı ildəki 156 milyon dollarla müqayisədə 2000-ci ildə 1 milyard dollara qədər artmışdır. ABŞ kənd təsərrüfatı biotexnologiyalarından istifadə sahəsində lider olaraq qalmaqdadır. 2001-ci ildə genetik cəhətdən yeniləşdirilmiş mədəni bitkilərin becərildiyi ümumi əkin sahələrinin 68%-i bu ölkənin payına düşmüşdür.[7]

Bununla əlaqədar bir çox tədqiqatçılar hesab edirlər ki, müasir sivilizasiya postqərb mərhələsinə qədəm qoyub. Bir tərəfdən öz ehtiyaclarını ödəməyə çalışan və mövcudluğu üçün böyük əhəmiyyət kəsb edən yoxsulluq ilə zənginlik arasında olan dərin fərqi saxlamağa cəhd göstərən Qərb cəmiyyətlərində istehlakçılar cəmiyyəti tezliklə tənəzzül etməyə məhkumdur. Digər tərəfdən, elita ilə xalq kütlələrinin ideyaları arasında baş verən "parçalanma" digər cəmiyyətlərin sosial bütövlüyündən daha çox Qərb cəmiyyətlərinin özlərinin sosial bütövlüyünü təhlükə altına qoyur. Postqərb sivilizasiyanın konturları hələlik müəyyən olunmayıb, lakin bizim fikrimizcə, onun sabit inkişafı yalnız bütün dövlət və sosial qrupların qəbul etdiyi qərarlara görə etik və hüquqi məsuliyyət daşıdıqlarını dərk etdikləri təqdirdə mümkündür. Dini-mənəvi dəyərlərə söykənməyən cəmiyyətlərdəki mədəniyyətlərdənsə, dünyəvi və dini dəyərlərin bir-birini tamamladığı cəmiyyətlərdəki mədəniyyətlər daha üstün mövqeyə malik olurlar.

Orta əsrlərdən başlayaraq, Qərb cəmiyyətində antik mədəniyyətə qədər gedib çıxmış köklərə malik materialist əsaslarla xristian dini dəyərlərinə əsaslanan dini əsaslar arasında tarazlıq yaratmağa ehtiyac hiss olunub. Bu baxımdan İslam sivilizasiyası müəyyən üstünlüklərə malikdir, belə ki, müsəlman mənəviyyatı nəzəri olaraq maddi rifahı istisna etmir. Əksinə, İslam rahat dünyəvi məişət qurmağa çağırır, rahiblik həyatını pisləyir, ticarətin, habelə təbiət və ictimai elmlərin inkişafını alqışlayır.

Buna baxmayaraq, əksər müsəlman cəmiyyətləri iqtisadi, sosial və siyasi problemlərlə yanaşı, vətəndaş həmrəyliyinin yoxluğu ilə daha da dərinləşən özünəməxsus milli-mənəvi dəyərlərin yeknəsəqliyi böhranını yaşayır. Azərbaycandakı sosial həyat bu cür problemlə Sovet İttifaqının dağılmasından sonra qarşılaşdı. Bu zaman elitar qruplar qlobal kosmopolit ideyalara yiyələnərək, faktiki olaraq dağılmış imperiya üçün burnunun ucu göynəyən, digər tərəfdən qərbləşmə və islamlaşma kimi təzahürlərin təsiri altına düşmüş geniş xalq kütlələrindən ayrıldılar. Artmaqda olan böhranı aradan qaldırmaq məqsədilə keçən əsrin 90-cı illərinin ortalarında azərbaycançı-

lıq ideyası yenidən irəli sürüldü. Lakin bu ideya indiyədək Azərbaycanda yaşayan müxtəlif millətlərə mənsub əksər insanların arzu və maraqlarını təcəssüm etdirmir.

Filosof A.İsmayılovun fikrinə görə, azərbaycançılıq ideyasının məramlarının kifayət qədər işlənib hazırlanmaması bu problemlə bağlı iki bir-birinin əksi olan yanaşmanın ortaya çıxmasına gətirib çıxardı: milli həyatın rəngarəngliyini və təkrarolunmaz mənəvi sərvətlərini subyektiv nöqteyi-nəzərdən hazırlanmış azərbaycançılıq ideyasının təbiətinə uyğunlaşdırmaq; yuxarıda adı çəkilən ideyanı məzmun və strukturdan məhrum etmək və digər anlayış və təzahürlərdən uzaq, eyni zamanda cəmiyyətdə birləşdirici funksiyaları yerinə yetirən bir növ klişe yaratmaq cəhdi.[8]

Fikrimizcə, ictimai şüurda ənənə ilə yeniliyi birləşdirmək prinsipi əsasında islahat aparmadan bu problemi həll etmək mümkün deyil, mədəniyyət və şüur mənəvi və maddi rifahı, millətin əxlaqi və intellektual cəhətdən sağlamlığını təmin edən bütün insan imkanlarının fəallaşdırılmasına və inkişaf etdirilməsinə yönəldilməlidir.

Bu prosesdə şəxsiyyət şüuruna malik insanlar mühüm rol oynamalıdırlar. S.Luryenin yazdığı kimi, beləlari faciə və iğtişaş dövrünü öz xalqı ilə birgə keçirməyə könüllü surətdə razı olmalıdırlar. "Şəxsiyyət şüuruna malik insanların ənənəvi cəmiyyətdən kənara tullanması cəmiyyətin dağılmasına, eyni zamanda nəticə etibarilə, etnik mədəniyyətin "mərkəzi sahəsinin" silinməsinə gətirib çıxarır".[9]

**Dövlətdə həyata keçirilən siyasi və sosial-iqtisadi islahatlar cəmiyyət həyatının inkişafı ilə paralel aparılmalıdır.** Həm dövlət, həm də vətəndaş cəmiyyəti həmin bu proseslərin nizamlanmasına görə məsuliyyət daşıyır, çünki hər hansı bir islahat birtərəfli qaydada həyata keçirilə bilməz. Azərbaycanın qlobal sistemə qoşulması və digər faktorlarla sıx əlaqələrin qurulması həmin bu prosesə müsbət təsir göstərə bilər. V.Nazarçukun qeyd etdiyi kimi, qloballaşma avtoritar hakimiyyətin legitimliyini şübhə altına qoymaqla yanaşı, onun özbaşınalığını beynəlxalq demokratik standartların hüquq çərçivələri ilə məhdudlaşdırır və hakimiyyət dairələrinin fəaliyyəti üzərində vətəndaş nəzarətinin güclənməsinə imkan yaradır. "İnkişaf etməkdə olan ölkələrdə siyasi yeknəsəqliyin yumşaldılması siyasi sistemdə və mədəniyyətdə köklü dəyişikliklər etmək üçün zəruri olan ilkin şərtdir. Əks təqdirdə, bu ilkin şərtin yaranması üçün başqa tarixi müddətlər tələb olunardı. İnkişaf etmiş ölkələrdə demokratiyanı zəiflədən təzahürlər inkişaf etməkdə olan ölkələrdə onun mövqeyini fəal surətdə gücləndirir və vətəndaş cəmiyyətini formalaşdırır".[10]

Eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı dövlət institutlarının əhəmiyyətini heç də azaltmır, belə ki, yalnız inkişaf etmiş sosial-iqtisadi bazaya malik olan dövlət əmək və bazar münasibətlərinin sürətli transformasiyası şəraitində meydana çıxmış neqativ halların aradan qaldırılması üçün məsuliyyət daşımaq iqtidarındadır. Əgər dövlət hakimiyyəti qloballaşmaya qarşı ekspansiya və ya izolyasionist siyasəti yürütmürsə və cəmiyyətin həm güclü, həm də zəif tərəflərini nəzərə alırsa, yuxarıda qeyd olunmuş məsələlərin müvəffəqiyyətlə həllinə nail ola bilər. T.Matsonaşvilinin fikrinə görə, "sosial risklərə görə, məsuliyyətin bütövlüklə fərdlərin üzərinə atılması faciəli nəticələrə gətirib çıxara bilər".[11]

Hazırda Qərbin böyük dövlətləri birbaşa və ya beynəlxalq təsisatların köməyilə Azərbaycana təsir göstərməklə hakimiyyət dairələrindən liberalizm və demokratiya prinsiplərinə sədaqət nümayiş etdirməyi tələb edirlər. Qərb ekspertlərinə görə, liberalizm – transmilli kapital üçün daxili bazarın açılması və iqtisadiyyatın bir sıra strateji sferaları da daxil olmaqla, dövlət sektorunun özəlləşdirilməsini nəzərdə tutur, bu da nəticə etibarilə iqtisadiyyatın sabitləşdirilməsi və vətəndaşların sosial müdafiəsi üçün zəruri olan dövlət resurslarının tükənməsinə gətirib çıxara bilər. Demokratiya prinsipi isə Azərbaycan cəmiyyətindəki siyasi vəziyyəti əks etdirməyən, yalnız dövlət hakimiyyətini zəiflədən və sarsıdan, xarici dövlətlərin maraqlarına xidmət edən siyasi plüralizmin yaranmasını özündə ehtiva edir.

Lakin demokratiya və açıq cəmiyyətin qurulması insanların özünəməxsus milli-mənəvi dəyərlərdən başqa dəyərlərin xeyrinə imtina edərək, bu addımın nəticələri barəsində düşünməyən cəmiyyət həyatının formalaşması demək deyildir. Açıq cəmiyyət hər bir fərdin öz hərəkətlərinə görə məsuliyyət daşımağa hazır olduğu və mənəvi dəyərlərin irsən kök salmış ənənəvi dəyərlərlə birləşmiş şəkildə mövcud olduğu təqdirdə mümkündür. İnsanlar həqiqətən özününkü olmayan inam və əqidəyə uyğun hərəkət etmirlər. Belə şərtlər altında mənəvi öhdəliklər çox ağır görünür, onlara riayət etməkdən imtina azad olmağa cəhd kimi səciyyələndirilir.[12]

Beləliklə, hesab edirik ki, hazırkı mərhələdə Azərbaycan cəmiyyətinin irəliyə doğru inkişafı məqsədilə dünyəvi və dini dəyərlərin ictimai təfəkkürdə dünya qaydasının əsas dəyərləri kimi təşəkkül tapması gərəkdir. Sosial həyatın xalq kütlələrindən ayrı düşməmiş və milli-mənəvi sərvətləri özündə toplayıb reallaşdıran elitaya çox böyük ehtiyacı var. Bizə görə, indi əsas məsələ cəmiyyətin bütün təbəqələrinin qərb-

ləşmək və bu kimi digər transformasiya cəhdlərindən imtina edilməli və millətin təşəkkül tapması üçün zəruri olan milli özünüdərki möhkəmlətmək qənaətinə gətirən proseslər müəyyənləşdirilməlidir.

## Qaynaqlar


1. Mitchell B. Morality, Religious and Secular: The Dilemma of the Traditional Conscience. Oxford: Clarendon Press, 1980, r. 79
2. Digeser P. Our Politics, Our Selves? Liberalism Identity. and Narm. Princeton: Princeton University Press, 1995, r. 26
3. Adams E.M. Philosophy and the Modern Mind: A Philosophical Critique of Modern Western Civilization. Charel Nill: The University of North Carolina Press, 1975, r. 32
4. Adams E.M. Philosophy and the Modern Mind: A Philosophical Critique of Modern Western Civilization. Charel Nill: The University of North Carolina Press, 1975, r. 40
5. Wuthnow R. Poor Richard's Princirle: Recovering the American Dream through the Moral Dimension of Work, Business. and Money. Princeton: Princeton University Press, 1996, r. 12
6. Назарчук А. Этика глобализирующегося общества. М., Директмедиа Паблишинг, 2002.
7. Boyd W. Wonderful Potencies? Deer Structure and the Problem of Monoroly in Agricultural Biotechnology /Engineering Trouble: Biotechnology and Its Discontents. Ed. by Dennis Doyle Takahashi Kelso, Rachel A. Schurman. Berkeley: University of California Press, 2003, p. 26
8. Исмайлов А. Гейдар Алиев и идеи национального единства. Газ. "Наш век", 13-19 мая 2005 г., № 19 (310).
9. Лурье С. Метаморфозы традиционного сознания. (Опыт разработки теоретических основ этнопсихологии и их применения к анализу исторического и этнографического материала). СПб., 1994.
10. Назарчук А. Этика глобализирующегося общества. М., Директмедиа Паблишинг, 2002.
11. Мацонашвили Т. Проблемы перестройки социального государства в Западной Европе. 2001, т. 6, № 3.
12. Roger Bergman. Identity as motivation: Toward a theory of the moral self Moral Develorment, Self and Identity. Ed. by Daniel K. Larsley, Darcia Narvaez; Mahwah: Lawrence Erlbaum Associates, 2004, r. 31.